BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2015

UOT 94(479.24)

# YENİ DÜNYA DÜZƏNİ DÖNƏMİNDƏ TÜRKİYƏ RESPUBLİKASI - ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNƏ BAXIŞ

**S.F.RUİNTƏN**
***Bakı Dövlət Universiteti***
***seva6611@rambler.ru***

*XX əsrin sonlarında dünya sosialist sisteminin çökməsi, SSRİ-nin dağılması, beynəlxalq münasibətlər sistemində yeni düzənin formalaşmağa başlaması ilə Cənubi Qafqaz regionu yenidən dünya dövlətlərinin maraqları dairəsinə daxil oldu. Yeni yaranmış şəraitdə Türkiyə Cümhuriyyəti Cənubi Qafqazda müstəqilliyini elan etmiş Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının hər üçünün dövlət müstəqilliyini tanıdı. Azərbaycan və Gürcüstan respublikaları ilə diplomatik münasibətlər qurdu, Ermənistanla isə diplomatik münasibətləri hələ də mövcud deyil. Məqalədə Türkiyə Cümhuriyyəti ilə Ermənistan arasındakı münasibətlərdə mövcud problemlərdən, onların səbəblərindən bəhs olunur.*

**Açar sözlər:** yeni dunya düzəni, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ), Türkiyə Cümhuriyyəti, Ermənistan Respublikası, qeyri-ənənəvi diplomatiya, "pendir diplomatiyası", "futbol diplomatiyası"

XX əsrin 80-90-cı illərində dünya sosialist sisteminin iflasa uğraması ilə dünya nizamında əhəmiyyətli dəyişikliklər baş verdi. SSRİ-nin dağılması nəticəsində Cənubi Qafqazda yeni müstəqil dövlətlər (Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları) meydana gəldi. Bununla da Qafqaz bölgəsi yenidən dünya dövlətlərinin maraqları sisteminə daxil oldu. Mövcud şəraitdə digər dünya dövlətləri kimi Türkiyə Respublikası da müstəqilliklərini yeni elan etmiş Cənubi Qafqaz dövlətləri ilə ayrı-ayrılıqda tam həcmli diplomatik münasibətlər qurmağa, onlarla əlaqələrini inkişaf etdirməyə yönəlmiş siyasət yürütməyə başladı.

Cənubi Qafqaz dövlətləri ilə əməkdaşlığa Türkiyə regional siyasətinin tərkib hissəsi kimi baxır. Bölgədə daimi sülhə nail olunması və təhlükəsizliyin təmin edilməsi Türkiyənin əsas məqsədlərindəndir. Belə ki, Qafqazın sabitliyi və inkişafı eyni zamanda Türkiyənin də inkişafına xidmət edir. Bu baxımdan Türkiyə hər vasitə ilə regionda mövcud münaqişələrin sülh yolu ilə həllinə, sabitliyin əldə olunmasına çalışır, Cənubu Qafqaz respublikalarından Azərbaycan və Gürcüstanla mehriban qonşuluq münasibətləri saxlayır, beynəlxalq və re-

gional əhəmiyyətli layihələrin hazırlanması və həyata keçirilməsində tərəfdaşlıq edir (1, 2, 3, 4, 22). Lakin regionun digər müstəqil dövləti olan Ermənistan Respublikası ilə münasibətlərdə bir sıra problemlər mövcuddur. Türkiyə ilə Ermənistan arasındakı münasibətlər bir sıra araşdırmaçılar tərəfindən qeyri-ənənəvi diplomatiyaya dayalı, yəni iki dövlət arasında diplomatik münasibətlər qurulmadan mövcud olan münasibətlər kimi xarakterizə edilir (5).

Ümumilikdə, SSRİ-nin süqutu və Ermənistanın müstəqillik əldə etdiyi yeni dünya düzəni şəraitində Türkiyə-Ermənistan münasibətlərinin bir-birini əvəz edən 4 mərhələdən keçdiyini izləyə bilərik.

*I mərhələ - 1991-1993-cü illəri əhatə edir.* Bu illər tərəflərin, aralarındakı qarşılıqlı etimadsızlığa baxmayaraq, münasibətlərini "sıfırdan başlamağa" cəhd etdikləri dövr kimi xarakterizə edilir. Türkiyə Ermənistanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olmuşdur. 1991-ci il sentyabr ayının 21-də Ermənistanın müstəqilliyini elan etməsindən bir qədər sonra, daha konkret desək, 1991-ci il dekabr ayının 16-da Türkiyə onun müstəqilliyini tanıdı (6; Ermənistan XİN məlumatına görə: 24 dekabr 1991-ci ildə (7)). Türkiyəyə aid rəsmi mənbələrdə təsdiqini tapmasaq da, bunun ardınca Türkiyənin Yerevanda konsulluğunun açılması, hətta 1992-ci ilin əvvəllərində səfirinin də təyin olunması haqda fikirlər mövcuddur (5; 8). Rəsmi təsdiqlənən məlumatlara görə isə, 1988-1993-cü illərdə Türkiyənin SSRİ-də/Rusiyada fövqəladə və səlahiyyətli səfiri olmuş Volkan Vural 1991-1993-cü illərdə qərargahı Moskvada olmaqla, eyni zamanda Türkiyənin həm də Ermənistanda ilk və yeganə səfiri olmuşdur (9). 1992-ci ilin aprel ayında Volkan Vuralın Türkiyənin ilk rəsmi nümayəndəsi kimi Yerevana səfər etdiyi və səfər çərçivəsində Ermənistan prezidenti L.Ter-Petrosyanla "mehriban qonşuluq münasibətləri" müqaviləsinin layihəsinin hazırlandığı da bildirilir (5, 67). 1992-ci ilin iyun ayında Türkiyənin o zamanki baş naziri Süleyman Dəmirəl Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüş, 1992-ci ilin avqust ayında Türkiyə Xarici İşlər nazirliyinin nümayəndə heyəti Yerevana səfər etmişdi. Azərbaycanın blokadada saxladığı Ermənistana Türkiyə ərazisindən keçməklə 100 min ton taxıl çatdırılmış, həmçinin enerji verilməsinə başlanmışdı (8; 22). Lakin bütün bunlara baxmayaraq, Ermənistanın Türkiyəyə qarşı ərazi iddiaları, 1921-ci il Qars müqaviləsi ilə müəyyən olunmuş Türkiyə-Ermənistan sərhədlərini tanımaması (Şərqi Anadolunu "Qərbi Ermənistan" adlandırması), Ağrı dağının Ermənistanın dövlət gerbində əks olunması (8; 10, 67; 22), Ermənistanın müstəqillik aktına dövlətin "1915-ci il soyqırım aktının beynəlxalq birlik tərəfindən qəbul edilməsi üçün atılacaq addımları dəstəkləyəcəyi" (11, maddə 11) barədə maddəni daxil edilməsi nəticəsində diplomatik münasibətlər qurulmadı. 1993-cü ilin əvvəllərində Ermənistanın Azərbaycana hərbi təcavüzünün artdığı, erməni işğallarının Qarabağın dağlıq hissəsindən kənar torpaqlara keçdiyi bir şəraitdə Türkiyə Ermənistanla sərhədlərini bağladı (12, 121; 22). Lakin həm də, ölkə ictimaiyyətinin Azərbaycana daha çox yardım etməsini tələb etməsinə rəğmən, Türkiyə dövləti Ermənistan-

Azərbaycan münaqişəsinə açıq hərbi müdaxilə etmədi, diplomatik vasitələrdən istifadə edilməsinə üstünlük verdi. Digər dövlətlərlə görüşlərində, danışıqlarında "Ermənistanın Azərbaycana təcavüzü", "Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi" və s. bu kimi ifadələr işlədilməsinə başlandı. 1994-cü ildə Ermənistan və Azərbaycan arasında "Atəşkəs haqqında" Bişkek razılığı imzalandıqdan sonra Türkiyə-Ermənistan münasibətlərində də tədricən növbəti mərhələyə keçid baş verdi.

*II mərhələ - 1994-2008-ci illər:* münasibətlərdə durğunluq mərhələsi. 1996-cı ildə Türkiyə Xarici İşlər nazirliyindən bildirilmişdi ki, Ermənistan Azərbaycan əleyhinə hərəkətlərinə son qoymayana qədər onunla sərhədlərini bağlı saxlayacaq. Bu mərhələdə Türkiyə, Azərbaycan və Gürcüstan Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Xətti (BTC) (1; 13), Bakı-Tbilisi-Ərzirim Qaz Boru Xətti (BTƏ) (1; 14), Bakı-Tbilisi-Kars Dəmiryolu Xətti (BTK) layihələri (1; 15) çərçivəsində əməkdaşlığı genişləndirdilər, iqtisadi baxımdan müəyyən uğurlar qazandılar. Bütün layihələrdən təcrid olunmuş Ermənistanın vəziyyəti isə daha da ağırlaşdı. Forbes jurnalının tərtib etdiyi iqtisadi vəziyyəti ağır olan ölkələr siyahısında Ermənistanın adı 2-ci sırada yer almış oldu (16).

İkinci mərhələdə Ermənistanda prezidentliyə Robert Köçəryanın gəlişi ilə (1998-2008) Ermənistanın da Türkiyəyə münasibətdə mövqeyinin kəskinləşdiyi, bir çox məsələlər üzrə Türkiyəyə münasibətdə sərt mövqe nümayiş etdirməyə səy göstərdiyi qeyd olunur. Məsələn, R.Köçəryan "erməni soyqırımı" məsələsini beynəlxalq gündəmə gətirməyi özünün xarici siyasət kursunda prioritet olaraq görürdü. Bu illər həmçinin Ermənistanın "erməni soyqırımı" iddialarını beynəlxalq aləmdə Türkiyə əleyhinə mübarizədə "qeyri-ənənəvi silah" kimi istifadə etməyə cidd-cəhd etdiyi dövr kimi qiymətləndirirlər (8). Bundan başqa, Ermənistan prezidenti dövlətlər arasında diplomatik münasibətlərin olmamasını səbəb göstərərək, 2007-ci ilin iyun ayında Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbul sammitinə getməkdən də imtina etmişdi və s. Lakin bu qədər gərginliyin olmasına baxmayaraq, bu mərhələdə də münasibətlərin tamamilə pozulmadığı göstərilir. Belə ki, 1995-ci ildə Ermənistan parlamentinin spikeri Babken Ararkctyan İstanbula səfər etmiş; 1995-1996-cı illərdə Yerevan – İstanbul, daha sonra isə Yerevan – Antalya aviareysləri açılmış; sərhədlərin bağlı olmasına baxmayaraq (daha çox üçüncü dövlətlər: Gürcüstan və İran vasitəsilə) ticarət əlaqələri qurulmasına başlanmışdı. 2001-2004-cü illərdə münasibətlərin normallaşmasına nail olmaq üçün yolların axtarılması ilə məşğul olan Türkiyə-Ermənistan işçi qrupu fəaliyyət göstərirdi və s. Bütün bunların nəticəsində isə, münasibətlərin durğunluq mərhələsindən yeni mərhələsinə keçid üçün zəmin yaranmış oldu.

*III mərhələ - 2008-2009-cü illər:* münasibətlərdə dəyişiklik dövrü. Bu mərhələdə münasibətlərin normallaşması istiqamətində müəyyən işlər görüldü. İlk olaraq, 2008-ci ilin əvvəllərində öncə "pendir diplomatiyası", daha sonra "futbol diplomatiyası" gündəmə gəldi (22; 23; 24; 26). 2008-ci ilin iyun ayında Ermənistan prezidenti S.Sarkisyan Türkiyə prezidenti Abdulla Gülü futbol üzrə

dünya çempionatı çərçivəsində keçiriləcək Ermənistan-Türkiyə oyununa dəvət etdi. 1 il sonra, 2009-cu ilin oktyabr ayında özü Bursada cavab oyununda iştirak etdi (21). Bunun ardınca "The Wall Street Journal Europe" jurnalında "Biz Türkiyə ilə danışıqlara hazırıq" adlı məqaləsi dərc olundu, az sonra "hesab edirəm ki, ölkələrimiz arasında normal münasibətlər qurulmasından başqa yolumuz yoxdur" bəyanatını verdi ki, bunlar Ermənistanla Türkiyə arasında münasibətlər prosesində yeni mərhələyə keçildiyinin göstəricisi olaraq qəbul edilir. Bəs münasibətlərdəki bu dəyişiklikyin səbəbi nə idi? Araşdırmaçılar arasında belə fikir mövcuddur ki, əsas səbəb - Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın iqtisadi və geosiyasi cəhətdən təcrid olunması idi. Bu təcridolunma nəticəsində Ermənistanın dünyaya 2 çıxışı qalır: biri İran, digəri Gürcüstan və onların heç birinə çox da ümid etmək olmaz. İranın vəziyyəti qlobal dünya siyasətindən asılıdır, Gürcüstan çıxışı isə Ermənistanı Rusiya-Gürcüstan münasibətlərindən asılı vəziyyətdə saxlayır. Bu baxımdan, Türkiyə ilə münasibətlərin normallaşdırılması Ermənistan üçün zəruri addım olaraq gündəmə gəlir.

Qafqaz uğrunda gedən "böyük oyun"da Türkiyənin yeni iştirakçı olmadığını deyən mütəxəssislər, münasibətlərin normallaşmasında Türkiyənin də maraqlı göründüyünü, hətta hadisələrin bu istiqamətdə inkişafına ABŞ və Rusiyanın da etiraz etmədiyini qeyd edirlər. Ola bilsin elə bu səbəbdəndir ki, bu mərhələdə münasibətlərin normallaşması istiqamətində müəyyən nəticələr də əldə edildi. 22 aprel 2009-cu ildə dövlətlər arasında münasibətlərin normallaşdırılmasını nəzərdə tutan "Yol xəritəsi" imzalandı. 2009-cu il oktyabr ayının 10-da Sürixdə "İkitərəfli münasibətlərin inkişafı haqda" və "Diplomatik münasibətlərin qurulması haqda" protokollar imzalandı (6; 7). Lakin bu protokolların imzalanması da münasibətlərdə gözlənilən nəticələrə gətirib çıxarmadı. Protokollar nə Türkiyə, nə də Ermənistan parlamentlərində ratifikasiya mərhələsini keçə bilmədilər. Türkiyə parlamentində müxalifət partiyaları müzakirənin keçirilməsi nəzərdə tutulan iclası tərk etdilər. Hakim partiyanın zalda qalan nümayəndələri də bu sənədin müzakirəsini vacib hesab etmədiklərini pərdələməyə belə cəhd etmədilər. Ermənistan Konstitusiya Məhkəməsinin 12 yanvar 2010-cu il tarixdə hər 2 sənədin ölkənin Ali qanununa uyğun olduğunu təsdiq etməsinə baxmayaraq, cəmiyyətdə mövcud əhval-ruhiyyəni nəzərə alan, həmçinin Türkiyənin "Azərbaycan amilini" sərhədlərin açılması üçün şərt olaraq irəli sürdüyünü (25) səbəb göstərərək S.Sarkisyan da öz tərəfindən 22 aprel 2010-cu ildə Sürix protokollarının ratifikasiyası prosesinin dayandırılması haqda sərəncam imzaladı (7).

*IV mərhələ - 2010-cu ildən başlayıb* günümüzdə də davam etməkdə olan mərhələdir. Bu mərhələ münasibətlərdə durğunluğa geri dönüş mərhələsi kimi qiymətləndirilir. Ümumiyyətlə, bir sıra araşdırmaçılar hər 2 ölkə ictimaiyyətinin münasibətlərin normallaşmasına hazır olmadığını qeyd edir, lakin eyni zamanda, bunun heç də münasibətlərin normallaşmayacağı demək olduğu qənaətinə gəlmədiklərini də bildirirlər. Onların fikrincə, Türkiyə və Ermənistan arasında münasibətlərdə mövcud problemlər tarixi keçmişdən qaynaqlanan prob-

lemlərdir. “Məsələlərə daha geniş baxılarsa, problemlərin xalqlar arasında deyil, dövlətlər arasında olduğunu görmək olar” deyirlər (17). Dövlətlərin aralarındakı problemlərin öhdəsindən gəlmələri üçün normallaşmadan sonrakı perspektivlərin nəzərə alınmasının vacib olduğu bildirilir. Münasibətlərin normallaşması nəticəsində ilk olaraq, regionda mövcud problemlərdən biri – Ermənistanla Azərbaycan arasındakı problemin həllinə nail olmağın mümkün olacağı ehtimal edilir ki, bu da ümumilikdə regionda sülhə və sabitliyə nail olma istiqamətində mühüm addım kimi qiymətləndirilir. Belə ki, Ermənistan təcridolunmadan çıxar, tranzit ölkəyə çevrilər və Avropaya çıxış əldə etmiş olar. Türkiyə də öz xarici siyasətinin 3 hədəfinə birdən nail ola bilmə imkanı əldə edər: Avropa Birliyi ilə münasibətlərində problemlərin biri aradan qalxmış olar; Qafqaz regionunda nüfuzu artar və nəhayət, Avrasiyanın indi olduğundan daha müstəqil mərkəzlərindən birinə çevrilər (19). Lakin göstərilən səylərə baxmayaraq, hələ də münasibətlərin normallaşdırılmasına nail olmaq mümkün olmur. Onu da qeyd edək ki, hazırda Ukrayna və Suriya ətrafında cərəyan edən hadisələr fonunda Türkiyə-Ermənistan münasibətləri problemi bir növ ikinci plana keçmiş kimi görünür.

Son olaraq qeyd etməyi lazım bilirik ki, yuxarıda göstərilən fikirlərdə razılaşmadığımız məqamlar kifayət qədərdir. İlk növbədə, hesab edirik ki, Türkiyə - Ermənistan münasibətləri sadəcə iki dövlət arasındakı münasibət kimi nəzərdən keçirilməməlidir. Bu münasibətlər hazırki dünya siyasətinin ilk baxışdan sadə görünsə də, əslində ən dolaşıq halqalarından biridir. Türkiyənin və Ermənistanın bir-birləri ilə olan münasibəti, onların hər ikisinin eyni zamanda Azərbaycanla (18), həmçinin Rusiya ilə olan münasibətləri deməkdir. Təsadüfi deyil ki, Ermənistan tərəfin Türkiyə əleyhinə ittiham dolu çıxışlarında tez-tez Azərbaycanın adı çəkilir, Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tərəf olduğu bildirilir (18; 20, 195). “Türkiyə ilə Ermənistan arasında münasibətlər normallaşarsa, Ermənistan-Azərbaycan münasiqəşəsinin həll olunacağı və regionda sülh əldə olunacağına doğru mühüm addım atılmış olar” fikrinə gəlincə isə, qeyd etmək istərdik ki, Cənubi Qafqazda Ermənistan-Azərbaycan münaqişəsindən başqa, Rusiya-Gürcüstan ziddiyyətləri də mövcuddur. Bu baxımdan, regionda dayanıqlı sülhə nail olmaq üçün region dövlətlərinin hər birinin həm ayrı-ayrılıqda, həm də birlikdə səy göstərməsi vacib şərtdir. Ən önəmlisi isə, ilk addım olraq beynəlxalq münasibətlər sistemi nizama salınmalı, böyük dövlətlər hazırki dünya siyasətlərində müvafiq dəyişikliklər etməlidirlər.

**ƏDƏBİYYAT**


1. http://www.mfa.gov.tr/ – Türkiye Cümhuriyeti Dış İşler Bakanlığının saytı
2. http://www.mfa.gov.tr/turkiye_nin-guney-kafkasya-ulkeleriyle-iliskileri.tr.mfa
3. http://mfa.gov.az/ – Azərbaycan Respublikası XİN saytı
4. http://www.mfa.gov.ge/Home.aspx?lang=en-US - Gürcüstan XİN saytı
5. Гайк ДЕМОЯН. *Турция и Карабахский конфликт.* Ереван, 2006. - Стр.255. (Online). Mənbə: http://armenianhouse.org/demoyan/turkey/ch2.html [Baxılıb: 03.10.2015]
6. http://www.mfa.gov.tr/turkiye-ermenistan-siyasi-iliskileri.tr.mfa

7. http://www.mfa.am/ru/country-by-country/tr/ - Ermənistan XİN saytı
8. Сергей МАРКЕДОНОВ. *Нелинейное примирение*. Россия в глобальной политике. №3, 2011. (Online). Mənbə: http://www.globalaffairs.ru/number/Nelineinoe-primirenie-15229 [Baxılıb: 03.10.2015]
9. *Волкан Вурал: Турция небезразлична к боли армян*. (15 сентября 2008). (Online). Mənbə: **PanARMENIAN.Net.** http://panarmenian.net/rus/news/26938 [Baxılıb: 03.10.2015]
10. Alla MİRZOYAN. (2010). *Armenia, the Regional Powers, and the West: Between History and Geopolitics*. New York: Palgrave Macmillan. (Online). Mənbə: http://www.palgrave.com/page/detail/armenia-the-regional-powers-and-the-west-alla-mirzoyan/?isb=9780230618664 [Baxılıb: 03.10.2015]
11. *Декларация о независимости Армении.* (23.08.1990). (Online). Mənbə: http://www.parliament.am/legislation.php?ID=2602&lang=rus&sel=show [Baxılıb: 03.10.2015]
12. Thomas DE WAAL. (2010). *The Caucasus: An Introduction.* Oxford, Oxford University Press. (Online). Mənbə: https://books.google.az/books/about/The_Caucasus_An_Introduction.html?id=6X745rS5Ci8C&redir_esc=y [Baxılıb: 03.10.2015]
13. *Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri.* (Online). Azərbaycan Respublikası Dövlət Neft Fondunun saytı. Mənbə: http://www.oilfund.az/az_az/layiheler/baki-tbilisi-ceyhan-esas-ixrac-boru-kemeri.asp [Baxılıb: 03.10.2015-ci il]
14. *Bakı – Tbilisi – Ərzurum Qaz Boru Kəməri.* Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin saytı. (Online). Mənbə: http://www.socar.az/socar/az/activities/transportation/baku-tbilisi-erzurum-gas-pipeline [Baxılıb: 03.10.2015-ci il]
15. Bakı – Tbilisi – Qars yeni dəmir yolu. (Online). Mənbə: Azərbaycan Respublikası Dövlət Neft Fondunun saytı: http://www.oilfund.az/az_AZ/layiheler/baki-tbilisi-qars-demir-yolu.asp [Baxılıb: 03.10.2015-ci il]
16. Forbes выяснил, экономика каких стран развивается хуже всего. В десятку неудачников вошли Украина, Армения, Киргизия. (Online). Mənbə: http://m.forbes.ru/article.php?id=70366 [Baxılıb: 03.10.2015]
17. Mustafa ÖZ. (25.09.2014). *Türkiye, Azerbaycan ve Ermenistan ilişkileri.* (Online). Mənbə: http://www.bolugundem.com/turkiye-azerbaycan-ve-ermenistan-iliskileri-7452yy.htm [Baxılıb: 03.10.2015]
18. Mustafa AYDIN. (Eylül 2009). *Azerbaycan, Türkiye-Ermenistan Anlaşmasının Neresinde?* TEPAV Politika Notu. (Online). Mənbə: https://www.academia.edu/715940/Azerbaycan_T%C3%BCrkiye-Ermenistan_Anla%C5%9Fmas%C4%B1n%C4%B1n_Neresinde [Baxılıb: 03.10.2015]
19. Mustafa Serdar PALABIYIK. *2000 Sonrası Türkiye – Ermenistan İlişkileri.*(Online). Mənbə: http://turksandarmenians.marmara.edu.tr/tr/2000-sonrasi-turkiye-ermenistan-iliskileri/ [Baxılıb: 03.10.2015]
20. Gerard J. LIBARIDIAN. (2004). *Modern Armenia: People, Nation, State, Transaction.* Publishers, New Brunsweek (USA) and London.
21. *Bursa'da futbol diplomasisi.* (15 Ekim 2009). BBC. Türkce. (Online). Mənbə: http://www.bbc.com/turkce/haberler/2009/10/091015_newarmenia.shtml [Baxılıb: 09.10.2015]
22. *Türkiye-Ermenistan İlişkileri: Önce “Peynir Diplomasisi” Sonra “Futbol Diplomasisi* (01 Eylül 2008). Uluslararası İlişkiler ve Stratejik Analizler Merkezi (TÜRKSAM). (Online). Mənbə: http://www.turksam.org/tr/makale-detay/752-turkiye-ermenistan-iliskileri-once-%EF%BF%BDpeynir-diplomasisi-sonra-%EF%BF%BDfutbol-diplomasisi [Baxılıb: 09.10.2015]

23. Bülent ARAS. (Ekim 2008). *Ermenistan ile futbol diplomasisi.* Anlayış. Aylık siyaset, ekonomi, toplum dergisi. №65. (Online). Mənbə: http://www.anlayis.net/makaleGoster.aspx?dergiid=65&makaleid=5379 [Baxılıb: 10.10.2015]
24. *"Съедобная дипломатия" на Южном Кавказе набирает обороты.* (24.07.2010). Armenia Today. (Online). Mənbə: http://armtoday.info/default.asp?Lang=_Ru&NewsID=29211&SectionID=0&RegionID=3&Date=09/14/2010&PagePosition=4 [Baxılıb: 10.10.2015]
25. ЕЛЕНА ГАБРИЕЛЯН. (22.04.2015). *Сыр вместо мира.* RFİ (France Médias Monde). (Online). Mənbə: http://ru.rfi.fr/kavkaz/20150422-syr-vmesto-mira-spetsreportazh-k-stoletiyu-genotsida-armyan [Baxılıb: 10.10.2015]
26. *A Caucasian cheese circle.* (May 22nd 2008). The Economist. (Online). Mənbə: http://www.economist.com/node/11412925 [Baxılıb: 10.10.2015]

## ПРОБЛЕМЫ ВО ВЗАИМООТНОШЕНИЯХ МЕЖДУ РЕСПУБЛИКОЙ ТУРЦИЯ И АРМЕНИИ В ПЕРИОД НОВОГО МИРОВОГО ПОРЯДКА

**С.Ф.РУИНТАН**

**РЕЗЮМЕ**

Распад мировой социалистической системы и развал Советского Союза привели к созданию нового мирового порядка. С появлением новых независимых государств в регионе Южный Кавказ был включен в систему интересов мировых государств. Турецкая Республика признала независимость новых постсоветских государств Южного Кавказа, (включая Армению), также, за исключением Армении, с которой во взаимоотношениях существуют проблемы, установила дипломатические отношения. Данная статья посвящена анализу взаимоотношений между Арменией и Турецкой Республики в период нового мирового порядка.

**Ключевые слова:** новый мировой порядок, Союз Советских Социалистических Республик (СССР), Турецкая Республика, Республика Армения, неконвенциональная дипломатия, «дипломатия сыра» («съедобная дипломатия"), «футбольная дипломатия»

## A VISION OF RELATIONS BETWEEN THE REPUBLIC OF TURKEY AND ARMENIA IN THE NEW WORLD ORDER

**S.F.RUİNTAN**

**SUMMARY**

The collapse of the world socialist system and the collapse of the Soviet Union resulted in the creation of a new world order. With the emergence of new independent states in the region, South Caucasus was included into the system of the world's interests. Republic of Turkey recognized the independence of South Caucasian newly established states (as well as Armenia) and established diplomatic relations with them, excluding Armenia. This article focuses on the current problems in the relations between Armenia and the Republic of Turkey, investigating the causes of these problems.

**Key words:** new world order, Union of Soviet Socialist Republics, the Republic of Turkey, the Republic of Armenia, unconventional diplomacy, “cheese diplomacy”, “football diplomacy”